# “Möhtəşəmliyin çöküşü” qarşılandı...



***Mayın 6-sı 'Teleqraf Media Holdinq'də yazıçı, şair, prezident təqaüdçüsü Tural Turanın 'Möhtəşəmliyin Çöküşü" adlı şeirlər kitabının təqdima**tı və imza günü keçirildi.*

Tədbiri **yazıçı, şair-publisist Qurban Yaquboğlu** açdı. O, Tural Turanın yaradıcılığını yüksək qiymətləndirərək bu tədbirin moderatorluğunu etməkdə şad olduğunu bildirdi:



“Tural Turan modern Azərbaycan poeziyasında özünəməxsus dəst-xətti olan imzalardandır. Onun şeirlərini oxuduqda görürsən ki, fərqli tərzi, üslubu var. Bu da onun ədəbi düşüncəsinin böyük potensialından, istedadının orijinallığından xəbər verir.

Əziz tədbir iştirakçıları, “Möhtəşəmliyin çöküşü”ndə müəllifin son illərdə qələmə aldığı şeirlər toplanıb. Şeirləri istər bir oxucu, istərsə də bir yaradıcı şəxs kimi diqqətlə oxudum, maraqla qarşıladım. Tural həm jurnalist, həm də şair kimi özünəxas yazı, fikri ifadə tərzinə malikdir”.

Daha sonra söz **“Teleqraf Media Holdinq'in rəhbəri Aynur Camalqızı**na verildi. Aynur Camalqızı Tural Turanı şair kimi də, jurna-



list kimi də yüksək qiymətləndirdi:

“Öncə onu vurğulayım ki, mənim onunla ortaqlığım xüsusən jurnalistika sahəsindən başlayır. Tural Turan çağdaş jurnalistikamızda əziyyəti, dünyagörüşü, yazı maştabı olan istedadlardan, gənclərdəndir. Onun bir yazıçı, şair kimi yaradıcılığına gəldikdə isə birmənalı şəkildə deyim ki, şeirlərini, hekayələrini, esselərini eləcə də ədəbi fəaliyyətini müntəzəm olaraq izləyirəm. Tural Turan istedadlı şairdir. Qələmi də özünəməxsusdur. Hər biriniz kimi mən də onun türk dünyası qarşısındakı xidmətlərinin şahidiyəm. Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla ədəbi əlaqələrin inkişafındakı xidmətləri göz önündədir. Turanı, türk birliyini şeirlərinə daşımasa da, bu istiqamətdəki addımlarını çox bəyənirəm.

Onun yaradıcılığında kədər, hüzn açıq şəkildə duyulur. Həm də ondan bu məclisdə əyləşən Rüstəm Behrudi yaradıcılığının qoxusu gəlir. Bu da onun dünyaya baxış bucağından xəbər verir. Mən Turala gələcək fəaliyyətində uğurlar arzulayıram”.

**Türk dünyasının böyük şairi Rüstəm Behrudi** çıxış edərək söylədi ki, Tural Turan böyük şairdir: “Mən onun bundan əvvəlki “...Və bütün qaranlıq otaqlar” kitabına ön söz yazmışam. Orada da de-



mişəm ki, sən təpədən dırnağa şairsən.Turalla tez-tez görüşür, ədəbi söhbətlər əsnasında müzakirələr açırıq... Dünyada ən çətin şeylərdən biri söz haqqında söz söyləməkdir. Sən bunu gözəl bilirsən,Tural. Mən uzun illərdi düşünürəm ki, şairlik bütün ömrün boyu özünəbənzər adam axtarmaqdı, sonunda da onu tapmamaqdı. Bu, şairliyin formuludur. Ağır da olsa sənə bunu arzulayıram”.

**Araşdırmaçı-jurnalist Aydın Canıyev** çıxışında bildirdi ki, Tural Turan istedadlı olduğu qədər də, özünün və sözünün çəkisini bilən, şəxsiyyət adamdır: “Onun istedadlı olduğunu bir-iki cümləsini oxuyan kimi anlayırsan. Tural Turan modern Azərbaycan ədəbiyyatında öz yeri, öz nəfəsi olan şa-



irlərimizdəndir. Şeirlərinin də, özünün də şəxsiyyəti böyükdür”.

Daha sonra şair, Prezident təqaüdçüsü, kitabın ön sözünün müəllifi Emil Rasimoğlu çıxış elədi. O bildirdi ki, müasir poeziyamızda, nəsildaşları sırasında Tural Turan imzası, ismi seçilən, rəğbətlə qarşılanan imzadır, ismdir: “Təbii ki, mən qarşımızdakı kitabda dərc olunan şeirləri dəfələrlə



oxumuş, bədii məziyyətinə varmış və əhatəli şəkildə həmin şeirlər haqqında çıxış etmişəm. Tural Turanın mətnlərinin fonunda onun bəşəri qatda fərdləşməsi, yanaşdığı mövzunu o qatda mətn halına gətirib öz düşüncə emalatxanasından keçirtməsi və bütün bunlarla bərabər istedad gücünün sənəti ehtiva edə bilməsi dayanır...Madam ki, onun ədəbi fəaliyyətindən və şəxsiyyətindən də söz açıldı o zaman qısaca olaraq onu deyim ki, Tural ədəbiyyat yaratmaqla yanaşı həm də ədəbiyyata, istedada yol, körpü olmağı bacaran, içi, ruhu bütöv olan aydınlarımızdan, sənətkarlarımızdandır.”

**Sənətşünas Fəxri Məmmədzadə** Tural Turanı şəxsiyyət olaraq çoxdan tanıdığını bildirdi: “Onunla söhbətlərimizdə həmişə maraqlı polemikalar açılır. Tural Turanın şeirlərinin rəngi də, ruhu da özünəməxsusdur. Şifrəli misraların alt qatını gərək oxucu çözə, oxucuya şeiri xammal kimi təqdim edir”.



Daha sonra **şair, yazıçı, publisist Ümid Nəccari, şair, yazıçı, publisist Ulucay Akif, yazıçı, şair Səttar Temuçin, “Türküstan” qəzetinin baş redaktoru Aqil Camal, “Ağ Partiya'nın sədri Tural Ab-**





**baslı, şair-publisist Hikmət Nikbin, Əməkdar mədəniyyət işçisi Fazil Abasquluzadə və başqaları** çıxış edərək çağdaş Azərbaycan ədəbiyyatından, müəllifin yaradıcılıq dairəsindən, ədəbi-ictimai fəaliyyətindən bəhs edən nitq söylədi.

Bir müddət çıxışlara ara verilərək Tural Turanın təqdimatında bir neçə öz şeiri dinlənildi.

**“Türküstan” Media Qrupunun rəhbəri Aqil Camal** Tural Turanın öz cığırı, nəfəsi, yolu olduğunu, artıq bir neçə ildir ki, Türk dünyası ədəbi əlaqələrini “Türküstan”



qəzetinin “Ədəbi Turan” səhifələrinə daşıdığını söylədi: “Həmin səhifədə Tural Özbəkistandan, Qazaxıtan, Qırğızıstan, Türkmənistan, Türkiyə ədəbiyyatından seçmə nümunələri təqdim edir. Modern Turan ədəbiyyatı onun timsalında Azərbaycan oxucuları ilə daha ətraflı və köklü şəkildə görüşə gəlir. Biz onunla həyatda heç üç-dörd dəfə görüşməmişik. Amma ruhumuz çox yaxın, düşüncələrimiz əksərən ortaqdır. Sanki hər gün görüşürük. Türkçülük məfkurəsinin təbliği, bütövlük ideyasının aşılanması Turalın şüuraltı təfəkkür qatlarından, könlünün səmimi sevgisindən, bağlılığından gəlir desəm, qətiyyən yanılmaram. Ona bundan sonrakı yaradıcılıq yolunda da uğurlar arzu edirəm.”

Sonda şair tədbir iştirakçılara öz təşəkkürünü bildirdi. Böyük maraqla keçən tədbir kitabların imzalanması ilə yekunlaşdı.

Xatırladaq ki, bu Tural Turanın biri özbəkcə olmaqla sayca altıncı kitabıdır.



**Səhifəni hazırladı: Emil Rasimoğlu**